**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DÖVLƏT ORQANLARININ FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN TƏSİRİ

İxtisas: 5909.01 - "Dövlət idarəçiliyi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Anar Əkrəm oğlu Şükürov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Dövlət qulluğu və kadr siyasəti» kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Siyasi elmlər doktoru, professor<br>**Ziyafət Ziya qızı Həbibova** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, dosent<br>**Adil Mirabdulla oğlu Mirabdullayev** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Rəşad Rəhim oğlu Məhərrəmov** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Vasif Sultan oğlu İsmayılov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>____________________ | Akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi:<br>____________________ | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri:<br>____________________ | Siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir zamanda idarəçilik və inzibati sahələrdəki müsbət dəyişikliklərin və proseslərin nəticəsi olaraq dövlət orqanları daha effektiv və daha səmərəli fəaliyyət göstərmək məcburiyyətindədirlər. İnkişaf etmiş dövlət idarəçiliyi üçün rəhbər vəzifələri tutan yüksək səviyyəli dövlət qulluqçularına, yüksək ixtisaslı kadrlara, səmərəli idarəçilik fəaliyyətinə və göstərilən dövlət xidmətlərinin keyfiyyətcə daha effektiv olmasına ehtiyac vardır.

Dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətli və səmərəli formada həyata keçirilməsi üçün mütləq ictimaiyyətin fikir və tələbləri nəzərə alınmalıdır və bu formada yəni əməkdaşlıq əsasında öz işlərini qurmalıdırlar. Burada ənənəvi idarəçilikdə olan çoxlu sayda qayda-qanunçuluq, səmərəsiz fəaliyyət, lazımsız dəftərxana və sənəd işləri kimi bürokratik əngəllərdən imtina edilməlidir. Çünki dövlət orqanlarının səmərəli ictimaiyyətlə əlaqələr fəaliyyəti vətəndaşların diqqət mərkəzində olduğu fəaliyyətin nəticəsində baş verəcəkdir. Başqa sözlə ifadə etsək, ictimaiyyətlə əlaqələr qurumu ictimaiyyətə tanıdan və qurumun ictimaiyyətə açılan pəncərəsidir. Yuxarıda da qeyd etdiyimiz kimi dövlət orqanı ilə hədəf kütlələri arasında baş verən proseslərin tənzimlənməsini, idarəetmə prosesinin ayrılmaz hissəsi olan ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə həyata keçirmək mümkündür. Bütün qurumların ictimaiyyət ilə ünsiyyət qurmaq vacibliyi vardır və bu ünsiyyət prosesi qurumlar üçün artan dəyərə malikdir. Məhz bu vaciblik ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə daha effektiv və səmərəli olur.

Dövlət orqanlarının göstərdikləri xidmətlər və bu xidmətlərin keyfiyyəti istər-istəməz vətəndaşların həyatına təsir edən proseslərdən biridir. Dövlət orqanlarının əsas məqsədi ölkə vətəndaşlarına yüksək keyfiyyətli və səmərəli formada xidmət etməkdirsə, ictimaiyyətlə əlaqələr fəaliyyəti vasitəsi ilə bu fəaliyyətin nəticəsi olaraq xalqın dövlət orqanına qarşı inamını və dəstəyini qazanmaq mümkündür. Məhz elə bu kontekstdə də dövlət orqanlarının səmərəli fəaliyyətinə ictimaiyyətlə əlaqələrin təsiri tədqiqatın aktual olmasını əks etdirir. Həmçinin yuxarıda qeyd olunanlar müasir dövrümüzdə ictimaiyyətlə əlaqələr fəaliyyətinin nə qədər ciddi məsələ olduğunu, bu sahənin

inkişaf potensialının artırılmasını və bu potensialdan istifadənin səmərəliliyinin yüksəldilməsi məsələlərinin araşdırılmasının əhəmiyyətini və dissertasiya mövzusunun aktuallığını göstərir.

Dissertasiyanın yazılması zamanı ictimaiyyətlə əlaqələr anlayışı, dövlət orqanlarının ictimaiyyətlə əlaqələr fəaliyyəti, beynəlxalq təcrübə və ictimaiyyətlə əlaqələr sahəsinin Azərbaycandakı mövcud vəziyyəti və inkişaf etdirilməsi ilə əlaqədar olan aktual məsələlər Azərbaycanın və xarici alimlərin elmi əsərləri, ədəbiyyatları, konfrans materialları əsasında təhlil edilmişdir.

Akademik Urxan Ələkbərovun dövlət idarəçiliyi, inklüziv inkişaf, kadr potensialının təkmilləşdirilməsi və s. bu kimi istiqamətlərdə müxtəlif kitabları, müxtəlif xarici və yerli jurnallarda çap olunmuş məqalələri vardır. Bunlara "Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında", "Heydər Əliyev ideyaları Azərbaycanın innovativ inkişafının zəmini kimi"[1]və s. aid etmək olar. Təsadüfi deyildir ki, akademik Urxan Ələkbərov "İnklüziv inkişafın idarə edilməsinin əsasları" adlı kitabında inklüziv inkişaf sahəsində məqsədlərin formalaşması prosesinə ictimaiyyətin cəlb edilməsinin vacibliyini bildirir[2]. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi inklüziv inkişaf sahəsinə ciddi təsir göstərdiyi üçün dövlət orqanları da öz fəaliyyətlərinin effektivliyi üçün ictimaiyyətlə əlaqələr işində maraqlı olmalıdırlar.

Dövlət idarəçiliyi və bu sahənin inkişafı ilə əlaqədar olaraq professor Ziyafət Həbibovanın müxtəlif kitab və tədqiqatlarını qeyd edə bilərik. Onun "Azərbaycanın uğurlu formulu: novator lider və peşəkar dövlət qulluğu" həmçinin "Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi" kimi əsərləri xüsusi əhəmiyyətə malikdir[3].

---

[1] Ələkbərov, U. Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında: [Elektron resurs] / - 12 mart, 2019-cu il. URL: https://dia.edu.az/arxivl%C9%99r/11769; Ələkbərov, U. Heydər Əliyev ideyaları Azərbaycanın innovativ inkişafının zəmini kimi: [Elektron resurs] - 5 may, 2017-ci il. URL: https://www.elibrary.az/docs/QAZET/qzt2017_1738.htm

[2] Ələkbərov, U. İnklüziv inkişafın idarə edilməsinin əsasları / U.Ələkbərov. - Bakı: Təhsil, - 2018. - 216 s.

[3]Həbibova, Z. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi: [Elektron resurs] / 2018. URL: http://www.anl.az/el/Kitab/2019/04/2018-2356.pdf; Həbibova, Z.

Dosent Mürtəza Həsənov qeyd edir ki, "*İctimaiyyətlə əlaqələrin əsas məqsədi qurumlarla ictimaiyyəti arasında qarşılıqlı anlaşma və xoş niyyəti inkişaf etdirməkdir*"[4]. Həmçinin müəllif qeyd edir ki, Azərbaycan Respublikasında aparılan hüquqi və iqtisadi islahatlar dövlət idarəçilik sistemində əsaslı dəyişikliklərə, idarəetmənin təkmilləşdirilməsinə, peşəkar dövlət qulluğu sisteminin yaradılmasına, vətəndaş-məmur münasibətlərində yeni düşüncə formasının yaradılmasına səbəb olmaqdadır[5].

Azərbaycan Respublikasında bu sahəyə töhfə vermiş başqa bir müəllif dosent Rəcəb Rəhimlidir. Onun "Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi" və dövlət qulluqçusu - vətəndaş münasibətləri mövzusunda yazdığı "Dövlət idarəçiliyində səmərəliliyin təmin olunmasında dövlət qulluqçusu - vətəndaş münasibətləri" adlı yazılarını göstərə bilərik ki, burada müəllif dövlət qulluğunun təkmilləşdirilməsi ilə bağlı məsələləri və dövlət idarəçiliyində islahatların rolunu xüsusi qeyd etmişdir[6].

Başqa bir müəllif Ramil Məhərrəmov "İctimaiyyətlə əlaqələr işi" adlı kitabında təhsil səviyyəsi yüksək və ictimai rəy ilə hesablaşan ölkələrdə ictimaiyyətlə əlaqələr işinin sürətlə yayıldığını və bu sahədə çalışan kadrların sayının hər keçən gün artmasının təsadüfi olmadığını

---

Azərbaycanın uğurlu formulu: novator lider və peşəkar dövlət qulluğu : [Elektron resurs] – 23 iyun, 2020-ci il. URL: https://www.azerbaijan-news.az/index.php/posts/detail/azerbaycanin-ugur-formulu-novator-lider-ve-pesekar-dovlet-qullugu-191798

[4] Həsənov, M. Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin təşkili və idarə edilməsi [Elektron resurs] / - 25 noyabr, 2019-cu il. URL: https://geostrategiya.az/news.php?id=15

[5] Həsənov, M. Azərbaycanın Dövlət İdarəçilik sistemində innovasiya siyasətinin başlıca istiqamətləri [Elektron resurs] / - 9 yanvar, 2023-cü il. URL: https://www.yerveinsan.az/news.php?id=18595

[6] Rəhimli R. Z. Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi : [Elektron resurs] / - 23 iyun, 2019. URL: https://www.azerbaijan-news.az/az/posts/detail/dovlet-qullugunda-innovasiyalarin-yeni-merhelesi-193178; Rəhimli, R.Z. Dövlət idarəçiliyində səmərəliliyin təmin olunmasında dövlət qulluqçusu - vətəndaş münasibətləri // - Bakı: Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, - 2014. № 3 (47), - s.161-169.

bildirir[7].

Türkdilli ədəbiyyatlardan ictimaiyyətlə əlaqələr ilə bağlı bir sıra müəlliflərin əsərlərinə rast gəlmək mümkündür. Professor Filiz Peltekoğlu “Halkla ilişkiler nedir?” kitabında “*İctimaiyyətlə əlaqələri - qarşılıqlı faydaya əsaslanan və ictimaiyyətə təsir etməyə istiqamətlənmiş fəaliyyət*” kimi göstərir. Müəllif həmçinin “*İctimaiyyətlə əlaqələri fərdin və ya qurumun məqsədlərinə çatmalarına kömək edən və təşkilatın strukturuna görə dəyişən hədəf kütlələr ilə həyata keçirilən strateji kommunikasiya idarəçiliyi*” kimi qeyd etmişdir[8].

Mətin Kazancı “Kamuda ve özel sektörde halkla ilişkiler” kktabında qeyd edir ki, “*İctimaiyyətlə əlaqələr ancaq məlumat vermək məqsədi ilə həyata keçirilən bir araşdırma deyil, ictimaiyyətlə əlaqələr - idarəedənlərlə xalq arasındakı əlaqələri yaxşılaşdırmağa yönəldilmiş qarşılıqlı əlaqələrdir*”[9].

Professor Ələddin Asnanın “Kuramda ve uygulamada halkla ilişkiler” kitabında bildirir ki, “*İctimaiyyətlə əlaqələr fiziki və ya hüquqi şəxslərin müəyyən edilmiş qruplarla dürüst və sağlam əlaqələr qurmasında iştirak edir, bu münasibətləri inkişaf etdirərək hədəf kütlələrdən gələn reaksiyaları qiymətləndirir*”. Müəllif həmçinin “*İctimaiyyətlə əlaqələrə fayda yaradan münasibətləri əhatə edən idarəetmə sənəti*” kimi də tərif vermişdir[10].

Mete Çamdereli “Ana çizgileriyle halkla ilişkiler” kitabında göstərir ki, “*İctimaiyyətlə əlaqələr təşkilatlarla xalq arasında qarşılıqlı əlaqələri inkişaf etdirən bir texnikadır və ictimaiyyətlə*

---

[7] Məhərrəmov, R. İctimaiyyətlə əlaqələr işi: [Elektron resurs] / 2002. URL: https://kitabxana.nmi.edu.az/wp-content/uploads/2020/09/RamilM%C9%99h%C9%99rr%C9%99mov.-Ictimaiyy%C9%99tl%C9%99-%C9%99laq%C9%99l%C9%99r-isi..pdf

[8] Peltekoğlu, F. Halkla ilişkiler nedir? / F.Peltekoğlu. - İstanbul: Beta Yayınları, - 2016. - 621 s.

[9] Kazancı, M. Kamuda ve özel sektörde halkla ilişkiler / M.Kazancı. - Ankara: Turhan Kitabevi, - 2019. - 524 s.

[10] Asna, A. Kuramda ve uygulamada halkla ilişkiler / A.Asna. - İstanbul: Pozitif Yayınları, - 2012. - 246 s.

*əlaqələr ictimaiyyətə təsir etmək və ondan təsirlənmək prosesidir*[11]".

Yuxarıdakı türkdilli ədəbiyyatlarla yanaşı Z.Sabuncuoğlu, N.Tortop, M.İşık, A.Özer, D.Tengilimoğlu, F.Geçikli, A.Okay və bu kimi müəlliflərin də kitab və məqalələrini qeyd etmək olar[12].

Peter Smudd "Teaching Public Relations" adlı kitabında göstərir ki, müxtəlif qurumlar tərəfindən həyata keçirilən bütün ictimaiyyətlə əlaqələr tədbirlərinin məqsədi qurum ilə ictimaiyyət arasında inamı yaratmaq, ictimaiyyət tərəfindən quruma qarşı marağı artırmaq və ictimaiyyət ilə qurumlar arasında möhkəm əlaqələr yaratmaqdır[13].

Xarici ölkə alimlərindən yuxarıda adları qeyd olunanlarla yanaşı Э.В.Кондратьев, M.B.Певная, C.Wimberly,, A.Theaker, J.E.Grunig, S.M.Cutlip, A.H.Center, G.M.Broom, C.Myers, A.Meli, S.Koshy və bir sıra başqa müəlliflərin mövzu ilə bağlı kitab və əsərləri çap edilmişdir[14].

---

[11] Çamdereli, M. Ana çizgileriyle halkla ilişkiler / M.Çamdereli. - İstanbul: Çizgi Kitabevi, - 2005. - 192 s.

[12] Sabuncuoğlu, Z. İşletmelerde halkla ilişkiler / Z.Sabuncuoğlu. - Bursa: Ezgi Kitabevi, - 2001. - 204 s.; Tortop, N. Halkla İlişkiler / N.Tortop. - Ankara: Nobel Akademik Yayıncılık, - 2018. - 388 s.; Tortop, N. Halkla İlişkiler / N.Tortop. - Ankara: Yargı Yayınları, - 1998. - 236 s.; Tortop, N. Halkla İlişkiler / N.Tortop. - Ankara: Yargı Yayınları, - 1993. - 208 s.; Işık, M. Dünden bugüne halkla ilişkiler / M.İşık, M.Akdağ. - Konya: Eğitim Kitabevi Yayınları, - 2011. - 287 s.; Özer, A. Halkla İlişkiler dersleri / A.Özer. - Ankara: Adalet Yayınları, - 2015. - 405 s.; Tengilimoğlu, D. İşletmelerde Halkla İlişkiler / D.Tengilimoğlu, Y.Öztürk - İstanbul: Seçkin Yayıncılık, - 2011. - 288 s.; Geçikli, F. Halkla İlişkiler ve İletişim / F.Geçikli. - İstanbul: Beta Yayınları, - 2013. - 342 s.; Okay, A. Halkla İlişkiler ve Medya / A.Okay, A.Okay. - İstanbul: Derin Yayınları, - 2021. - 224 s.; Okay, A. Halkla İlişkiler Kavram, Strateji ve Uygulamaları / A.Okay, A.Okay. - İstanbul: Der Yayınları, - 2001. - 715 s.

[13] Smudde, P.M. Teaching Public Relations / P.M. Smuddle - USA: İllinois State University Press, - 2020, - 176 p.

[14] Кондратьев, Э.В. Связи с общественностью / Э.В. Кондратьев, Р.Н. Абрамов. - Москва: Ульяновском Доме Печати. - 2012. - 272 с.; Певная, М.В. Связи с общественностью / М.В. Певная, Я.В. Дидковская - Екатеринбург: УГТУ−УПИ, - 2008. - 211 с.; Wimberly, C. How propaganda became Public Relations / C.Wimberly. - New York: Routledge press, – 2020. - 216 p.; Theaker, A. The Public Relations handbook / A. Theaker. - London: Media Press, - 2020. - 440 p.; Grunig, J. Managing Public Relations / J. Grunig, J. Todd. - New York: Rinehart

Lakin qeyd edilən tədqiqatların əhəmiyyətini azaltmadan vurğulamaq lazımdır ki, tədqiq olunan problemə həsr olunmuş elmi-praktiki əsərlər yetərincə yoxdur, həmçinin Azərbaycanda ictimaiyyətlə əlaqələr işi və bu sahənin inkişaf mexanizmləri kifayət qədər araşdırılmamış, toxunulmamış nəzəri və praktiki məsələlər vardır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini dövlət orqanları təşkil edir. Tədqiqatın predmetini isə dövlət orqanları ilə ictimaiyyətlə əlaqələrin qarşılıqlı münasibətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi ictimaiyyətlə əlaqələr fəaliyyətini araşdırmaq, ictimaiyyətlə əlaqələr fəaliyyətinə bənzər sahələrin oxşar və fərqli cəhətlərini müəyyən etmək, ictimaiyyətlə əlaqələr texnologiyasının üstünlüklərini araşdırmaq, dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirini müəyyən etmək, Azərbaycanda ictimaiyyətlə əlaqələr fəaliyyətini tədqiq etmək, dünya təcrübəsində ictimaiyyətlə əlaqələr fəaliyyətini araşdırmaq və Azərbaycanda bu təcrübədən istifadə imkanlarının ana xətlərini öyrənmək həmçinin bu mexanizmlərin tədqiq edilib öyrənilməsi nəticəsində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələri işləyib hazırlamaqdır.

Qarşıya qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- İctimaiyyətlə əlaqələrin nəzəri-metodoloji müddəalarını araşdırmaq;
- İctimaiyyətlə əlaqələrin konseptual əsaslarının tədqiqi və dövlət orqanlarında bu sahənin əsas fəaliyyət və inkişaf mexanizmlərini müəyyən etmək;
- Dövlət orqanlarında ictimaiyyətlə əlaqələr fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək;
- Dövlət orqanları ilə özəl qurumlarda ictimaiyyətlə əlaqələr

---

and Winston Inc., - 1984. - 576 p.; Cutlip, S.M. Effective Public Relations / S.M.Cutlip, A.H.Center, G.M.Broom - New Jersey: Prentice Hall international editions, - 2000. - 558 p.; Myers, C. Public Relations History Theory, Practice, and Profession / C.Myers. - New York: Routledge press, - 2020, - 184 p.; Meli, A. Public Relations crisis communication / A.Meli, S.Koshy - UK: Routledge Press, - 2021. - 96 p.

fəaliyətinin müqayisəsini aparmaq;

- Dünyanın inkişaf etmiş müxtəlif ölkələrində ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı təcrübələri öyrənmək;
- İctimaiyyətlə əlaqələrin dövlət orqanlarının fəaliyyət səmərəliliyinə təsirini əsaslandırmaq;
- Azərbaycanda ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı mövcud vəziyyəti öyrənmək;
- Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;

**Tədqiqat metodları.** Tədqiqat işinin elmi-nəzəri və metodoloji əsaslarını siyasi elmlərin ümumi qəbul edilmiş prinsip və metodları təşkil edir. Tədqiqat işinin tədqiq olunması zamanı analitik ümumiləşdirmə, tarixi məntiqi, qruplaşdırma, müqayisəli təhlil və sorğu metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

- İctimaiyyətlə əlaqələrin elmi-nəzəri əsasları və dövlət orqanlarının fəaliyyət səmərəliliyinə təsir edən ictimaiyyətlə əlaqələr ilə bağlı müasir vasitələr müəyyən edildi;
- Dövlət orqanları ilə özəl sektorun ictimaiyyətlə əlaqələr fəaliyyətlərinin əlaqələndirilməsi bu sahənin səmərəliliyi üçün zəruri amil hesab edildi;
- İnkişaf etmiş ölkələrin və Türkiyə Respublikasının dövlət orqanlarında ictimaiyyətlə əlaqələr fəaliyyəti sistemli təhlil olundu həmçinin qabaqcıl təcrübə öyrənilərək Azərbaycan Respublikasında tətbiqi mexanizmləri verildi;
- Beynəlxalq ictimaiyyətlə əlaqələr İnstitutlarının fəaliyyətləri araşdırıldı;
- Azərbaycan Respublikasının müxtəlif dövlət orqanlarında ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı elektron sorğular aparıldı;
- Azərbaycanda Respublikasında dövlət orqanlarının xidmətlərinin elektronlaşdırılması ictimaiyyətlə əlaqələr fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqaməti kimi müəyyən olundu;

- Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələr fəaliyyətinin inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edildi.

**Tədqiqatın elmi yeniliyi.** Dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin kompleks tədqiqində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Dövlət orqanları ilə ictimaiyyət arasında kommunikativ əlaqələrin təşkilində istifadə edilən əsas vasitələr verilmişdir;
- Azərbaycanda dövlət orqanlarının ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə əlaqədar olaraq elektron sorğular keçirilmişdir;
- Azərbaycanda dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin qiymətləndirilməsi nəticələri verilmişdir;
- Azərbaycan Respublikasında dövlət orqanlarının ictimaiyyətlə əlaqələr fəaliyyətlərinin səmərəliliyində inkişaf modeli tövsiyyə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti bundan ibarətdir ki, burada irəli sürülən müddəalar və nəticələr ictimaiyyətlə əlaqələr fəaliyyətinin əhəmiyyətini, dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin dərk edilməsinə şərait yaratmaqla, bu sahə üzrə elmi-tədqiqat işlərinin aparılmasında, ali təhsil müəssisələrində uyğun kursların tədrisində, mühazirə mətnlərinin və kitabların, elmi-praktik konfransların keçirilməsində istifadə oluna bilər.

Dissertasiya işinin materialları, nəzəri və praktik əhəmiyyət kəsb edən nəticələri bu sahədə maraqlı olan özəl sektor və dövlət orqanlarının ictimaiyyətlə əlaqələr şöbələri üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin başlıca müddəaları və əsas nəticələri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, həmçinin respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin struktur bölmələri "Giriş", üç fəsil, səkkiz yarımfəsil, "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat" siyahısından ibarətdir.

Dissertasiya işinin "Giriş" hissəsi - 12 208 işarə, I Fəsil – 66.616 işarə, II Fəsil – 84.066 işarə, III Fəsil – 39.760 işarə, Nəticə - 5.042 işarə, Ədəbiyyat siyahısı – 21.540 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 229.232 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır və problemin işlənmə dərəcəsi təhlili edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, tədqiqat işi yazılan zaman istifadə olunan müvafiq tədqiqat metodları qeyd olunur, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi göstərilir, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır, aprobasiyası və strukturu haqqında məlumatlar verilir.

"**İctimaiyyətlə əlaqələrin əsas xüsusiyyətləri və nəzəri əsasları**" adlı birinci fəsil üç paraqrafdan ibarətdir. "**İctimaiyyətlə əlaqələrin məqsədi və vacib xüsusiyyətləri**" adlı birinci paraqrafda tədqiqat işinin vacib tərkib hissəsi olan ictimaiyyətlə əlaqələr anlayışı, əsas xüsusiyyətləri, məqsədi, mərhələləri və qurum imicinin formalaşdırılmasında rolu verilmişdir. Qeyd edilmişdir ki, İctimaiyyətlə əlaqələr elə bir sistemdir ki, dəyişən zaman və şəraitdə ictimaiyyətin tələb və gözləntilərini qurumlara çatdıran bir sistemdir. Bu effektiv sistem ictimaiyyətin müxtəlif təbəqələrinin arzu və istəklərini aydın şəkildə ifadə edir həmçinin cəmiyyətin qurumlarla və qurumların cəmiyyətlə nizamlı əlaqələrinin qurulmasına kömək edir.

Birinci yarımfəsildə müxtəlif dünya və yerli alimlər tərəfindən ictimaiyyətlə əlaqələr anlayışına verilən təriflər və əsas xüsusiyyətlər açıqlanmışdır. Həmçinin ictimaiyyətlə əlaqələr fəaliyyətinin 4 mərhələsi yəni araşdırma və məlumatların toplanması mərhələsi, planlaşdırma mərhələsi, icra mərhələsi və qiymətləndirmə mərhələsi

ayrı-ayrılıqda açıqlanmış və hər mərhələnin əsas xüsusiyyətləri verilmişdir.

Tədqiqatın bu hissəsində ictimaiyyətlə əlaqələrin əsas məqsədləri yəni institusional (qurumun ictimaiyyət arasında nüfuzunu və etibarını yüksəltməklə qurumun maliyyə dəyərini artırmaq, rəqabət şəraitində qlobal inkişafla ayaqlaşmağı bacararaq qurumun mövcudluğunu qoruyub saxlamaq, özəl sahibkarlığın təşviqi və s) və sosial (ictimaiyyət arasında quruma inamı təmin etmək, hədəf kütlələrlə müntəzəm olaraq məlumat axınında iştirak etmək, bu barədə problemlər varsa məlum problemlərin həlli üçün alternativ təkliflər hazırlamaq, qurumla ictimaiyyətin münasibətlərini tənzimləmək və s.) məqsədləri açıqlanmışdır.

Birinci fəslin ikinci paraqrafı **"İctimaiyyətlə əlaqələr təcrübəsində istifadə edilən əsas vasitələr" adlanır.** Bu yarımfəsildə ictimaiyyətlə əlaqələr fəaliyyətində istifadə edilən əsas vasitələr (yazılı və çap vasitələri, şifahi vasitələr, audio-vizual vasitələr və digər vasitələr) qruplaşdırılmış və bu vasitələrin əsas xüsusiyyətlərindən bəhs edilmişdir.

Bu yarımfəsildə ictimaiyyətlə əlaqələr prosesində hədəf kütlələrə qurumun fəaliyyəti haqqında məlumat vermək, qurumu ictimaiyyətə tanıtmaq, hədəf kütlədən gələn reaksiyaları öyrənmək və başqa qurumlar ilə rəqabət apara bilmək üçün müxtəlif ünsiyyət vasitələrindən istifadə olunması xüsusilə vurğulanmışdır.

Müəyyən edilmiş hədəf kütləyə əvvəlcədən hazırlanmış mesajları ən uyğun zamanda və ən uyğun vasitələrlə çatdırılması - ictimaiyyətlə əlaqələrin məqsədlərindən biri kimi verilmişdir. Qurumların ictimaiyyətlə əlaqələr prosesində uğurlu olmaları üçün planlı olaraq bu işləri ardıcıl və fasiləsiz aparmaları göstərilmişdir. Bu prosesə isə qurumlara media ilə qurulan uzunmüddətli, ardıcıl və qarşılıqlı əlaqələrin kömək etməsi vurğulanmışdır. Çünki, yeni kommunikasiya texnologiyaları insanların düşüncələrini bölüşmələri üçün imkanlar yaradan, paylaşım və müzakirənin əsas olduğu bir

meydan yaratmaqdadır[15]. Bunun üçün də qurumların Facebook, Twitter, İnstagram, Linkedin, Blogs və YouTube kimi sosial media vasitələrindən istifadə etmələri qeyd edilmişdir.

Həmçinin bu fəsildə dövlət orqanlarının ictimaiyyətlə əlaqələr fəaliyyəti üçün sosial medianın ciddi məsələ olduğu qeyd edilmişdir (dissertasiya işində 567 nəfər ilə aparılan elektron anket sorğusunun nəticələrindən də bunu müşahidə etmək mümkündür) Çünki hədəf qrupları ilə sürətli və effektiv şəkildə kommunikasiya yaratmaq üçün sosial mediadan istifadə dövlət orqanlarının ictimaiyyətlə əlaqələr fəaliyyətinə ciddi üstünlüklər verir.

Tədqiqat işinin bu yarımfəsilində ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə qarışdırılan bəzi sahələrin (propaqanda, lobbiçilik, marketinq və reklam) oxşar və fərqli cəhətləri ətraflı şəkildə təhlil edilmişdir.

Qurumların iş üslubları, idarəetmə strategiyaları və işçi mühiti də yeni ünsiyyət texnologiyalarının təsiri ilə dəyişməyə başlamışdır. Həmçinin qeyd edilmişdir, dünyada baş verən sürətli inkişafa uyğunlaşmaq, keyfiyyətli xidmətlər göstərmək və hədəf kütlələri ilə səmərəli ünsiyyət yaratmaq üçün qurumlar daimi olaraq yenilikləri izləməli, müasir struktura malik olmalı və dəyişikliklərə hazır olmalıdırlar.

Birinci fəslin üçüncü yarımfəsli **“Dövlət orqanlarının və özəl sektorun ictimaiyyətlə əlaqələr fəaliyyətinin fərqli xüsusiyyətləri və qarşılıqlı əlaqəsi”** adlanır. Burada qeyd edilir ki, istər dövlət orqanları istərsə də özəl qurumlar öz siyasətlərini və fəaliyyətlərini çevrələrinə tanıtmaq üçün ictimaiyyətlə əlaqələr fəaliyyətindən istifadə etmək məcburiyyətindədirlər. Burada hər iki sahə üzrə tətbiq edilən ictimaiyyətlə əlaqələr siyasəti müəyyən dərəcədə oxşasa da müxtəlif fərqlər də mövcuddur. Hər bir qurumun xidmət sahəsindəki uğurunun nəticəsi ictimaiyyətlə əlaqələr işinin uğurlu olmasına təsir

---

[15] Barutçu, S. Sürdürülebilir sosyal medya pazarlaması ve sosyal medya pazarlaması etkinliğinin ölçümü / S.Barutçu, M.Tomaş // - Ankara: Journal of Internet Applications and Management, - 2013. Cilt 4, Sayı 1, - s. 5-23.

göstərən amillərdəndir[16]. Əgər hər hansısa qurum nə qədər səmərəli əlaqələr qurursa qursun, əgər həmin qurum keyfiyyətli xidmət göstərə və ya məhsul istehsal edə bilmirsə uğur qazana bilməyəcəkdir. Bu vəziyyət özəl sektor kimi həm də dövlət qurumları üçün keçərlidir.

Bu yarımfəsildə dövlət orqanları və özəl sektorun ictimaiyyətlə əlaqələr fəaliyyətləri müqayisə edilərək əsas fərqli sahələr müəyyənləşdirilmişdir. Buraya özəl sektor və dövlət orqanlarının məqsəd, qanunvericilik, təşkilatlanma, tərəflər və hədəf auditoriyaları, maliyyə, nəzarət və s. kimi sahələrdəki fərqlilikləri göstərilmişdir.

Həmçinin qeyd edilmişdir ki, şəraitdən asılı olmayaraq istər dövlət orqanı olsun istərsə də özəl sektorun ictimaiyyətlə əlaqələr fəaliyyəti şəffaflıq və açıqlıq prinsipinə uyğun olaraq həyata keçirilməlidir ki, bu qurumlara qarşı hədəf kütlələrin inamı sarsılmasın[17]. Bu dəstəyi almaları üçün qurumlara lazım olan idarəetmə funksiyası məhz ictimaiyyətlə əlaqələrdir.

"**Beynəlxalq təcrübədə və Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələr fəaliyyətinin mövcud vəziyyətinin təhlili**" adlı ikinci fəslin **"ABŞ-da və Avropa İttifaqında ictimaiyyətlə əlaqələrin inkişaf təkamülü, müasir xüsusiyyətləri və Avropanın beynəlxalq ictimaiyyətlə əlaqələr İnstitutlarının fəaliyyətləri"** adlı birinci yarımfəslində ABŞ-da ictimaiyyətlə əlaqələr fəaliyyətinin tarixi və müasir dövrə qədər inkişaf xarakteristikası verilmişdir**.** Qeyd edilmişdir ki, ictimaiyyətlə əlaqələr öz köklərini qədim dövrlərdən alsa da yalnız XX əsrdə peşəkar bir sahəyə çevrilmişdir. İctimaiyyətlə əlaqələrin ilk olaraq Amerika Birləşmiş Ştatlarında sistemli şəkildə ortaya çıxdığı və elmi şəkildə peşəkarlaşdığı qəbul edilməkdədir. Çünki ictimaiyyətlə əlaqələrin həm elmi tərəfdən həm də müasir formada bir fəaliyyət olaraq inkişafı məhz Amerikada inkişaf etmişdir[18]. Burada qeyd edilmişdir ki, təsadüfi deyildir ki,

---

[16] Metin, H. Karşılaştırmalı bir yaklaşımla kamu yönetimi ve özel sektörde halkla ilişkiler // - İzmit: Kocaeli Üniversitesi, SBE Dergisi, - 2002. №1, - s. 79-99
[17] Özer, A. Halkla İlişkiler / A.Özer. - Ankara: Adalet Yayınevi, - 2009. - 453 s.
[18] Sabuncuoğlu, Z. İşletmelerde Halkla İlişkiler / Z.Sabuncuoğlu. - Bursa: Alfa Aktüel Yayınları, - 2010. - 300 s.

ictimaiyyətlə əlaqələr (ingiliscə - Public Relations qısaca olaraq PR) terminindən ilk dəfə elə Amerika Birləşmiş Ştatlarının üçüncü prezidenti Tomas Ceferson istifadə etmişdir. O, 1807-ci ildə “Konqresə VII müraciəti”nin qaralamasında ilk dəfə olaraq ictimaiyyətlə əlaqələr - PR terminini işlətmişdir. Bu termin altında o, ölkə daxilində dövlət hakimiyyətinə inamın yaradılmasını və bu işdə siyasi qurumların cəhdlərinin artırılmasını anlayırdı[19].

Tədqiqat işinin bu yarımfəsilində Amerika Birləşmiş Ştatlarında ictimaiyyətlə əlaqələr fəaliyyətinin 6 dövrü (“Çiçəklənmə dövrü”, “Birinci Dünya Müharibəsi dövrü”, “Kükrəyən iyirmilər dövrü”, “Ruzvelt və İkinci Dünya Müharibəsi dövrü”, “Müharibədən sonrakı dövr” ilə “Qlobal İnformasiya Çağı” dövrləri) təsvir edilmiş və hər bir dövrün özünəməxsus xüsusiyyətləri açıqlanmışdır.

Bu paraqrafda 2020-ci ildə Amerika Birləşmiş Ştatlarında keçirilən Prezident seçkilərində namizədlərin ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı seçki kampaniyaları təhlil edilmiş və namizədlərin daha çox hansı ictimaiyyətlə əlaqələr vasitələrindən istifadə etdikləri verilmişdir.

Qeyd edək ki, Amerikada 100.000-nə qədər ictimaiyyətlə əlaqələr işi üzrə mütəxəssis vardır. Bu rəqəmə dövlət müəssisələrində işləyən mütəxəssislər daxil deyil. Bunlarla yanaşı hal-hazırda ABŞ-da 6000-dən çox ictimaiyyətlə əlaqələr xidmətləri göstərən şirkətlər vardır[20].

Bu yarımfəsildə Avropada ictimaiyyətlə əlaqələrin inkişafı, təşəkkülü barəsində məlumatlar verilmiş və Avropanın beynəlxalq ictimaiyyətlə əlaqələr institutlarının əsas fəaliyyət istiqamətləri göstərilmişdir. Qeyd edilmişdir ki, Avropada ictimaiyyətlə əlaqələrin inkişaf edib təşəkkül tapması 1946-cı ildən sonralara təsadüf edir. Ümumiyyətlə Avropa qitəsində ilk ictimaiyyətlə əlaqələr şirkətləri əsasən Amerika Birləşmiş Ştatlarına məxsus neft və avtomobil şirkətlərinin filialları formasında fəaliyyət göstərmişdir. Çünki bu

[19] Çamdereli, M. Ana çizgileriyle halkla ilişkiler / M.Çamdereli. - İstanbul: Çizgi Kitabevi, - 2005. - 192 s.
[20] Tyree, T. The Interesting and Incredibly Long History of American Public Relations / T.Tyree. - Iowa: KH Publishing Company, - 2015. - 48 p.

ictimaiyyətlə əlaqələr şirkətləri Amerika Birləşmiş Ştatlarında istifadə olunan ictimaiyyətlə əlaqələrin vasitə və üsullarını Avropaya gətirmişdir. 1950-ci illərdən sonra Fransa, Belçika və İngiltərədə peşəkar qurumlar yaranmağa başladı.

Həmçinin qeyd edilmişdir ki, dünyadakı sürətli əhali artımı, ideoloji müharibələr, kütləvi informasiya vasitələri mövzusundakı texniki olaraq həyata keçirilən işlər və s. bu kimi məsələlər Avropa ölkələrində də ictimaiyyətlə əlaqələr araşdırmalarına olan ehtiyacı artırmışdır[21]. Həmçinin Avropa İttifaqının yaradılmasından sonra Avropada ictimaiyyətlə əlaqələr sahəsi daha da inkişaf etmişdir.

Bu yarımfəsildə beynəlxalq səviyyədə ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə məşğul olan dünyanın ən böyük beynəlxalq ictimaiyyətlə əlaqələr agentlikləri haqqında məlumatlar verilmişdir.

Bu paraqrafda Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası (İPRA), İctimaiyyətlə Əlaqələr üzrə Avropa Konfederasiyası (EPRC), İctimaiyyətlə Əlaqələr İnstitutu (İPR) haqqında məlumatlar verilmiş və əsas fəaliyyət istiqamətləri göstərilmişdir.

**İkinci fəslin ikinci paraqrafı "Türkiyədə ictimaiyyətlə əlaqələrin tarixi və müasir dövrdə dövlət orqanlarının ictimaiyyətlə əlaqələr fəaliyyətləri"** adlanır. Bu yarımfəsildə Türkiyədə ictimaiyyətlə əlaqələr fəaliyyətinin inkişaf mərhələləri, həmçinin Türkiyə Respublikasında fəaliyyət göstərən nazirliklərin ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı əsas xüsusiyyətləri, vəzifə və səlahiyyətləri ayrı-ayrılıqda verilmişdir.

Həmçinin bu paraqrafda Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsi haqqında məlumatlar verilmişdir. Qeyd edilmişdir ki, milli və beynəlxalq ictimaiyyət, qərar qəbul edən subyektlər, media ilə dərin və çoxşaxəli əlaqələri inkişaf etdirmək, bu istiqamətdə bütün vasitə və üsullar ilə Türkiyənin hər sahədə təsirli təmsilini həyata keçirtmək, Türkiyə markasını gücləndirmək İdarənin Vizyonunu təşkil edir. Qeyd edilmişdir ki, Türkiyəyə aid siyasəti və fəaliyyəti planlı və təsirli şəkildə

---

[21] Bozkurt, V. Küreselleşmenin insani yüzü / V.Bozkurt. - Bursa: Alfa Yayınları, - 2000. - 374.

ictimaiyyətə çatdırmaq və ictimayi şüura təsir edilməsi işlərini həyata keçirtmək, medianı və düşüncə dünyasını yaxından izləmək, qiymətləndirmək və bu çərçivədə müvafiq qurumları və ictimaiyyəti məlumatlandırmaq, mətbuatla əlaqələri təşkil etmək və yaxşılaşdırmaq, mətbuat üzvlərinin işini asanlaşdırmaq və mətbuatın inkişafına töhfə vermək üçün addımlar atmaq, xalq-dövlət münasibətlərinin effektiv idarə olunması üçün lazımi araşdırmalar və tənzimləmələri həyata keçirmək İdarənin Misyonunu təşkil edir[22].

**İkinci fəslin üçüncü paraqrafı "Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələr və dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin dəyərləndirilməsi"** adlanır. Bu yarımfəsildə qeyd edilmişdir ki, Azərbaycanda ictimaiyyətlə əlaqələr terminindən əsasən 1990-cı illərdən sonra istifadə edilməyə başlanılmışdır. Həmçinin göstərilmişdir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlanıldı. Bu mərhələdə dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin yenidən işlənilməsi mərhələsinin ilk addımları atılmağa başlanıldı. Ümummilli Lider Heydər Əliyevin dövlət idarəetmə sistemində hüquqi islahatlarla bağlı verdiyi müxtəlif sərəncam və fərmanları həyata keçirilən islahatlarda əsas rol oynamışdır. Ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan Respublikasında nəinki dövlət quruculuğu işləri həyata keçirildi, həmçinin ölkə vətəndaşları vahid milli ideologiya ətrafında birləşdi. Heydər Əliyevin həyata keçirdiyi bu strategiya ölkənin gələcək inkişafı üçün bünövrə oldu.

Bu paraqrafda Azərbaycanda dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin dəyərləndirilməsi məsələsi kimi müxtəlif dövlət orqanlarında (Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Aparatı - Ombudsman, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Abşeron rayon İcra Hakimiyyəti, 1 saylı Gəncə Regional "Asan Xidmət" Mərkəzi və Azərbaycan Respublikasının

---

[22] Türkiye Cumhuriyeti İletişim Bakanlığının resmi internet sitesi [Elektronik kaynak] / URL: https://www.iletisim.gov.tr/turkce

Diasporla İş üzrə Dövlət Komitəsi) ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə bağlı keçirilən elektron sorğulara verilən cavablar təhlil edilmiş və bunun əsasında da əsas dəyərləndirmələr aşağıdakı kimi verilmişdir:

- Dövlət orqanlarında ictimaiyyətlə əlaqələr fəaliyyəti vətəndaşlara dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin daha şəffaf və effektiv formada göstərilməsinə kömək edir;
- İctimaiyyətlə əlaqələr fəaliyyəti ictimaiyyət ilə əlaqələrin düzgün qurulmasına, düzgün qurulmuş əlaqələrin fəaliyyət səmərəliliyinə, təqdim edilmiş hər hansı bir xidmətin keyfiyyəti ilə bağlı vətəndaşların rəyinin öyrənilməsinə, təqdim edilmiş xidmətlərdəki çatışmazlıqları müəyyən edib onların aradan qaldırılmasına kömək edir;
- Dövlət orqanlarında düzgün qurulmuş ictimaiyyətlə əlaqələr fəaliyyəti idarəetmə sahəsində bürokratiyanın qarşısının alınmasına kömək edir;
- Dövlət orqanlarının keyfiyyətli ictimaiyyətlə əlaqələr strategiyası dövlət orqanlarında çevikliyin artmasına kömək edir;
- İctimaiyyətlə əlaqələr sahəsi üzrə fəaliyyət göstərən şəxslərin ixtisaslaşması bu sahənin səmərəliliyi üçün vacib məsələdir;
- Sosial medianın inkişafı ictimaiyyətlə əlaqələr fəaliyyətində interaktivliyin yaranmasına, ictimai rəyin daha tez öyrənilməsinə və cəmiyyətdə məlumatlılığın artmasına səbəb olmaqdadır;
- Hal-hazırda ölkələrin dördüncü sənaye inqilabı və rəqəmsal keçid dövründə olması, dəyişikliklərin sürətlənməsi, yeni çağırışlar fonunda dövlət orqanlarının ictimaiyyətlə əlaqələr sahəsindəki fəaliyyəti hər bir qurum üçün strateji vasitə hesab edilir.

Dissertasiyanın “**Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələrin inkişaf perspektivləri”** adlı üçüncü fəsili iki paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı **“İctimaiyyətlə əlaqələr - Azərbaycanda dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi istiqaməti kimi”** adlanır.

Bu fəsildə Azərbaycan Respublikasında dövlət orqanlarının xidmətlərinin elektronlaşdırılması həmin orqanların ictimaiyyətlə əlaqələr fəaliyyətinin effektiv istiqaməti kimi müəyyən olunmuşdur. Müasir dövrdə Azərbaycanda dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərdə yeni növ istiqamətlərin tətbiqini, dövlət

orqanları tərəfindən həyata keçirilən elektron xidmətlərin keyfiyyətini, səmərəliliyini, effektivliyini artırmaq, dövlət xidmətlərinin sayının artırılmasını həyata keçirtmək və dövlət orqanlarına vətəndaşların etimadının artırılması yolunda bir model, nümunə və istiqamət kimi "ASAN Xidmət" verilmişdir.

Bu paraqrafda qeyd edilmişdir ki. inkişaf etmiş ölkələrin təcrübələrinə nəzər salsaq vətəndaşların dövlət orqanları ilə münasibətlərinin daha şəffaf və münasib formada təşkili üçün "bir pəncərə" sisteminə uyğun olaraq e-xidmətlərin bir yerdə və sistemdə cəmləşdirildiyi "Elektron hökumət" portallarının tətbiq edildiyini görə bilirik. Bu paraqrafda dövlət xidmətlərində şəfaflığın artırılmasına xidmət edən əsas amillərdən birinin Elektron hükumətin formalaşdırılması prosesinin sürətləndirilməsi olduğu həmçinin də elektron imza və elektron sənəd dövriyyəsinin həcminin artırılması qeyd edilmişdir. Həmçinin qeyed edilmişdir ki, Azərbaycanda beynəlxalq təcrübəyə əsaslanan "Elektron hökumət" sistemi formalaşdırılmaqdadır.

Dissertasiyanın üçüncü fəslinin ikinci paraqrafı **"Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətinin səmərəliliyində ictimaiyyətlə əlaqələrin rolunun artırılması yolları və inkişaf perspektivləri"** adlanır. Bu yarımfəsildə qeyd edilmişdir ki, Əsrin müqaviləsi nəticəsində Azərbaycanda beynəlxalq neft şirkətləri fəaliyyət göstərməyə başladılar və bu böyük şirkətlər inkişaf etmiş ölkələrin şirkətləri olduğu üçün həmin şirkətlər ictimaiyyətlə əlaqələrdən həm elmi həm də idarəetmə sahəsi kimi geniş surətdə istifadə edirdirlər. Bu şirkətlər beynəlxalq arenada tanınan, müasir dövrün tələblərinə uyğun yüksək keyfiyyətli texnologiyalardan istifadə edən və ictimaiyyətlə əlaqələr sahəsinə yüksək maliyyə yatıran şirkətlərdir. Məhz bu böyük çəkili şirkətlərin Azərbaycanda fəaliyyətə başlamaları Azərbaycanda ictimaiyyətlə əlaqələr fəaliyyətinə bir yol xəritəsi oldu.

Bu yarımfəsildə göstərilir ki, Azərbaycan Respublikasının Konstitutsiyasının I fəslinin birinci maddəsinin birinci bəndinə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi

Azərbaycan xalqıdır[23]. Buna əsasən də dövlət hakimiyyətinə bağlı olan dövlət qurumları öz işləri haqqında həmişə ictimaiyyətə məlumat verməlidirlər. Məhz bu açıq siyasət cəmiyyətdə həmin dövlət orqanlarına qarşı müsbət imicin, inamın formalaşmasına səbəb olur. Bir nüansı da qeyd edək ki, dövlət orqanlarının düzgün qurduğu ictimaiyyətlə əlaqələr fəaliyyəti həm ölkə qanunlarının tələbi həm də həmin dövlət orqanının ictimaiyyət qarşısındakı öhdəliyi sayılır.

Bu yarımfəsildə qeyd edilmişdir ki, sevindirici haldır ki, Azərbaycan Respublikasında son illərdə ictimaiyyətlə əlaqələr sahəsində beynəlxalq təcrübənin öyrənilməsi davam etdirilir. Buna misal olaraq 18 oktyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən seçilmiş otuz dövlət orqanının ictimaiyyətlə əlaqələr sahəsi üzrə məsul əməkdaşlarından ibarət nümayəndə heyəti Türkiyə Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin dəvəti ilə Türkiyə Respublikasına səfər etmişdir. Qeyd edək ki, belə görüşlər dövlət kommunikasiyasının təkmilləşdirilməsi məsələlərini həmçinin Azərbaycan Respublikasında bu sahədə təcrübə mübadiləsinin aparılmasını nəzərdə tutur[24]. Həmçinin bu sahənin inkişaf etdirilməsi Azərbaycan Respublikasında ictimaiyyətin bütün kəsimi ilə dövlət orqanları arasındakı münasibətlərin düzgün istiqamətdə aparılmasına, həmin dövlət orqanları və onların təqdim etdikləri xidmətlər haqqında düzgün informasiyaya malik olmalarına da səbəb olacaqdır. Çünki ictimaiyyətlə əlaqələr qurumların ictimaiyyət ilə düzgün münasibətlərinin qorunub saxlanılması texnologiyalarından biridir.

Həmçinin bu fəsildə Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin inkişaf perspektivləri verilmişdir ki, burada aşağıdakı sadalanan

---

[23] Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklərlə). - Bakı: Hüquq, - 2023, - 63 s.

[24] Azərbaycanın dövlət qurumlarının ictimaiyyətlə əlaqələr sahəsinə məsul əməkdaşları Türkiyəyə səfər ediblər: [Elektron resurs] / 17 oktyabr, 2023-cü il. URL:https://media.gov.az/azerbaycanin-dovlet-qurumlarinin-ictimaiyyetle-elaqeler-sahesine-mesul-emekdaslari-turkiyeye-sefer-edibler/

tədbirlərin görülməsinin məqsədəuyğun olması qeyd edilmişdir:

- İctimaiyyətlə əlaqələr sahəsi üzrə bilik və bacarıqların öyrənilməsi üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavr və magistratura səviyyələri üzrə "İctimaiyyətlə əlaqələr" və "Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr" adlı ixtisas və ixtisaslaşmaların açılması;

- Dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin müəyyənləşdirilməsi üçün dünyanın inkişaf etmiş ölkələrinin bu sahə üzrə  təcrübələrinin öyrənilməsi;

- Bütün dövlət orqanlarının ictimaiyyətlə əlaqələr sahəsi üzrə strategiyalarının və kommunikasiya planlarının yaxşı formada hazırlanmasına dövlət orqanının rəhbərliyi tərəfindən ciddi nəzarətin edilməsi;

- Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələrin inkişafı məqsədilə layihə və fəaliyyətlərin dövlət orqanları, özəl sektor və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq şəklində həyata keçirilməsi;

- Azərbaycan Respublikasında dövlət orqanlarında ictimaiyyətlə əlaqələr sahəsinin ixtisaslaşmasının sürətləndirilməsi üçün Avropa İttifaqında olan ictimaiyyətlə əlaqələr sahəsi üzrə ixtisaslaşan assosiasiya və institutlar kimi qurumların yaradılması və bu sahəyə dövlət dəstəyinin göstərilməsi;

- Bütün dövlət orqanlarının ictimaiyyətlə əlaqələr faəliyyətləri ilə əlaqədar olan rüblük hesabatların ictimaiyyətə açıqlanması;

- Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi nümunəsindən yararlanaraq Azərbaycan Respublikasının dövlət orqanlarında ictimaiyyətlə əlaqələr fəaliyyətinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün strukturun tövsiyə edilməsi (Sxem 1).

Tədqiqatın **"Nəticə"** hissəsində tədqiqat işinin yekun məsələləri qeyd edilmiş, ümumiləşdirmələr aparılmış həmçinin də problemin həlli ilə bağlı fikirlər, nəzəri və praktik əhəmiyyətli təklif və tövsiyyələr qeyd edilmişdir. Həmçinin tədqiqat zamanı müəyyən olunmuşdur ki, dövlət orqanlarının uğurlu fəaliyyəti üçün vətəndaşların dəstəyi təmin edilməli və dövlət orqanı həmişə vətəndaşa açıq siyasət yeritməklə qarşılıqlı əməkdaşlığı təmin

etməlidir. Məhz bunun üçün də ictimaiyyətlə əlaqələr fəaliyyətindən səmərəli və effektiv şəkildə istifadə olunması vacibdir. Burada ictimaiyyətlə əlaqələr fəaliyyətinin araşdırma, məlumatların toplanması, planlaşdırma, icra və qiymətləndirmə mərhələlərindən istifadə olunması, qurum imici və korporativ inam kimi məsələlərə ciddi yanaşılması, həmçinin də müasir ictimaiyyətlə əlaqələr prosesində yeni kommunikasiya texnologiyalarından istifadə edilməsi dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsində vacib şərtlərdəndir.

Nəticə hissəsində qeyd edilmişdir ki, müasir dövrümüzdə ictimaiyyətlə əlaqələr fəaliyyəti dövlət orqanları və dövlət idarəçiliyi üçün həm öhdəlikdir həm də vəzifədir. Bunun iki əsas səbəbi vardır. Birincisi, xalqı dövlət orqanlarının fəaliyyəti haqqında məlumatlandırmaq istəyinin və öhdəliyinin artmasıdır. İkinci səbəb isə dövlət orqanları rəhbərlərinin və başqa idarəçi şəxslərin ictimaiyyət ilə sıx əlaqələr qurmalarının zəruriliyidir. Qeyd edilmişdir ki, ictimaiyyətlə əlaqələr sektorunda ixtisaslaşdırılmış institutların mövcuduğu fəaliyyətin sistemli  tənzimlənməsində xüsusi rol oynayır.

Həmçinin ölkə siyasəti və fəaliyyətini planlı və təsirli şəkildə ictimaiyyətə çatdırmaq və ictimai şüura təsir edilməsi işlərini həyata keçirtmək, medianı və düşüncə dünyasını yaxından izləmək, qiymətləndirmək və bu çərçivədə müvafiq qurumları və ictimaiyyəti məlumatlandırmaq, mətbuatla əlaqələri təşkil etmək və yaxşılaşdırmaq məqsədilə dünya praktikasından istifadə məqsədəuyğundur.

Müəllif belə bir nəticəyə gəlmişdir ki, Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyət səmərəliliyinə ictimaiyyətlə əlaqələrin təsirinin yüksəldilməsi məqsədilə təkmilləşdirilmiş strukturun olması məqsədəuyğun hesab olunur (Sxem 1).




***Sxem 1. Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının Kommunikasiya İdarəsinin Təşkilati Strukturu***

*Mənbə: Sxem 1 - müəllif tərəfindən tərtib edilmişdir.*

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Qurumların imicinin formalaşdırılmasında ictimaiyyətlə əlaqələrin rolu // - Bakı: Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə jurnalı, - 2019. №3 (67), - s. 169-176.
2. Kamu sektöründe halkla ilişkiler uygulamaları // Uluslararası Kapadokya Sosial Bilimler Öğrenci Kongresi, - Türkiye Niğde, - 7-9 noyabr 2019, - s. 36-39
3. İctimaiyyətlə Əlaqələrin tarixi və inkişaf mərhələləri // - Bakı: Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə jurnalı, - 2020. №1 (69), - s. 271-280.
4. Dövlət orqanları və özəl sektor arasındakı ictimaiyyətlə əlaqələr fəaliyyətlərinin müqayisəli təhlili // - Naxçıvan: Naxçıvan Universitetinin Elmi Əsərlər Jurnalı, - 2020. №2 (17), - s. 13-20.
5. Müasir dövrdə dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin əsas xüsusiyyətləri // - Bakı: Qərbi Kaspi Universitetinin "Elmi Xəbərlər" Jurnalı, - 2020. №4, - s. 82-89.
6. İctimaiyyətlə əlaqələr fəaliyyətində istifadə edilən vasitələrin əsas xüsusiyyətlərinin tarixi və təhlili // - Naxçıvan: Naxçıvan Universitetinin Elmi Əsərlər Jurnalı, - 2020. №4 (19), - s. 167-174.
7. Qurumların korporativ sosial məsuliyyət (KSM) işində ictimaiyyətlə əlaqələrin (PR-ın) rolu // - Bakı: Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi nəzəri jurnalı, - 2020. №4 (76), - s. 10-13.
8. Qloballaşma prosesində qurumların strateji fəaliyyət sahəsi kimi ictimaiyyətlə əlaqələr (PR) // - Bakı: Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə jurnalı, - 2021. №4 (69), - s. 291-296.
9. Kamu Yönetiminde Halkla İlişkilerin Rolü: Azerbaycan Asan Hizmet Örneği // - Ankara: Uluslararası Yönetim Akademisi Dergisi, - 2021. №4 (2), - s. 275-287
10. Kriz Döneminde kamu kurumlarının halkla ilişkiler faaliyetleri (COVID-19 Salgını Sürecinde) // 2nd International Economics and Business Symposium "Effect of Covid-19 in All Dimensions, - Türkiye Qazientep, - 27 may 2021, - s. 49-53.

11. Korporativ əlaqələrin qurulmasında ictimaiyyətlə əlaqələrin rolu // - Naxçıvan: Naxçıvan Universitetinin Elmi Əsərlər Jurnalı, - 2022. №1 (25), - s. 240-243.
12. Dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinə ictimaiyyətlə əlaqələr işinin təsiri // Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Heydər Əliyevin dövlətçilik ideyaları və vətən müharibəsində tarixi qələbəmizi şərtləndirən əsas amillər" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransı, - Bakı, - 11 may 2022, - s. 101-106.
13. İctimaiyyətlə əlaqələr (PR) – qurumların əsas fəaliyyət sahəsi kimi // Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İdarəetmədə yeni trendlər və paradiqmalar mövzusunda Respublika Elmi-Praktik Konfransı, - Bakı, - 27 may 2022, - s. 123-128.



Dissertasiyanın müdafiəsi "30" yanvar 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.12.2024
Kağızın formatı:A5
Həcm: 37.662
Tiraj:100